# 22 iyul—Milli Mətbuat Günüdür

Azərbaycan milli mətbuatının banisi Həsən bəy Zərdabidir. O, XIX əsrin II yarısı—XX əsrin əvvəllərində yaşayıb yaratmış milli mətbuatımızın banisi olmaqla yanaşı, eyni zamanda Azərbaycanın təbiətşünas alimidir. Moskva Universitetini namizədlik diplomu ilə bitirən bu görkəmli alim ilk müsəlman məzunu olmaqla bərabər, o, həmçinin İslam dünyasının ilk təbiətşünas alimi, bütün müsəlman Şərqində islam xeyriyyəçilik hərəkatının banisi kimi tanınmışdır. Həsən bəy Zərdabi hələ 1873-cü ildə öz şagirdləri ilə birlikdə Bakıda Azərbaycan dilində ilk teatr tamaşası göstərən mədəniyyət xadimi və Rusiyada ilk türkdilli qəzet «Əkinçi»nin, Azərbaycanda ilk qızlar gimnaziyasının açılmasının təşəbbüskarı və təşkilatçısı olub.

Bu qəzetin ilk nömrəsi 1875-ci il iyulun 22-də çapdan çıxmışdı. «Əkinçi» qəzetinin nəşri bütün Qafqazda əks-səda doğurmuşdu. 1875-ci ilin 22 iyulundan 1877-ci ilin 29 sentyabrına qədər çapını davam etdirən «Əkinçi» ayda iki dəfə 300-400 tirajla (cəmi 56 nömrə) nəşr olunurdu. Qəzetin səhifələrində ictimai-siyasi məsələlərlə yanaşı, elmi fikirlərə də geniş yer ayrılmışdı. Qəzetdə elmin müxtəlif sahələrini əhatə edən bölmələr açılmışdı. Məsələn, «Əkinçi» qəzetində açdığı «Elmi xəbərlər» bölməsində elm və texnikanın, xüsusən də təbiətşünaslığın əldə etdiyi nailiyyətlərə, «Əkin və ziraət xəbərləri» bölməsində isə əkinçilik və maldarlığın inkişaf etdirilməsinə, kənd təsərrüfatı məhsullarının artırılmasına, bitkilərin becərilməsi və zərərvericilərdən qorunmasına, kənd təsərrüfatı alətlərinin yaxşılaşdırılmasına və təkmilləşdirilməsinə dair ardıcıl məqalələr dərc olunurdu. Bundan başqa onun «Həyat», «Kaspi» qəzetlərində, «Dəbistan jurnalında, «Məktəb»in məcmuəsində çap etdirdiyi elmi-kütləvi məqalələrin bir çoxu məhz ətraf mühitin öyrənilməsi, təbliği və qorunması ilə bağlı idi. Eyni zamnda Həsən bəy Zərdabi Azərbaycanın işıqlı ziyalıları ilə bərabər, özü də maarifçilik ruhlu məqalələrlə mütəmadi çıxış edirdi.

Bir sözlə, «Əkinçi» qəzeti xalqımızın milli oyanışında, milli birliyinin möhkəmlənməsində böyükrol oynamışdır. Qəzetin mütərəqqi ideyaları Rusitya hakim dairələrini narahat etmiş və iki il sonra qəzet bağlanmışdı.

Azərbaycan mətbuatının ilk müjdəçisi «Əkinçi»dən sonra bu sahədə xeyli irəliləyişlər olmuşdu. XIX əsrin sonlarında, «Ziya» (1879), «Kəşkül» (1880), «Kaspi» (80—90-cı illər) qəzetləri nəşrə başlamışdı.

XX əsrin əvvəllərində C. Məmmədquluzadə, M. Şahtaxtinski, S. Hüseyn, Ö. Faiq Nemanzadə, Ü. Hacıbəyov və başqaları yeni demokratik mətbuatın yaranması uğrunda mübarizə aparırdılar. Bu gərgin mübarizə öz nəticəsini verdi. «Şərqi-rus», «Həyat», «Açıq söz», «Azərbaycan kimi demokratik ruhlu milli qayəli qəzetlər meydana çıxdı. 1906-cı ildə «Molla Nəsrəddin» jurnalının nəşrə başlanması ilə Azərbaycan mətbuatında siyasi satiranın əsası qoyuldu. Redaktoru Xədicə xanım Əlibəyova olan «İşıq» jurnalının bütün əməkdaşları qadınlardan ibarət idi.

Sovet hakimiyyəti dövründə bütün sovet respublikalarında olduğu kimi Azərbaycanda da mətbuat sovet ideologiyasının ruporuna çevrilmişdi. Azad və demokratik mətbuatdan söhbət belə gedə bilməzdi. Yalnız bolşevik rejiminin, kommunist ideyalarının təbliği ilə məşğul olan qəzet və jurnalar nəşr olunurdu. Mətbuat üzərində ciddi senzura hökm sürürdü. Kommunist Partiyasının orqanı olan «Pravda» (bu qəzetin dilimizə tərcüməsi», «Həqiqət» olsa da, səhifələri qərb demokratiyasına qarşı iftiralarla, ictimai və iqtisadi siyasi həyatın müxtəlif sahələrinə aid yalan informasiyalarla dolu idi). qəzeitin ilk nömrəsinin çapdan çıxdıgı gün—5 may Mətbuat Günü kimi qeyd olunurdu.

Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra bir çox milli-mənəvi dəyərlərə qayıdış mətbuat sahəsində də özünü göstərdi. Bu gün ölkəmizdə yüzlərlə mətbu orqan—qəzet və jurnall fəaliyyət göstərir. Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə «Əkinçi» qəzetinin nəşrə başladığı gün—22 iyul Milli Mətbuat və Jurnalistika Günü kimi qeyd olunmağa başladı.

**Aslan CƏLİLOV.**

# Bu işğalın artıq sonu görünmür

**(Əvvəli 6-cı səhifədə).**

Talış kəndi yaxınlığındakı Urek, Madagızdəki XII əsrin yadigarı, Tərtər çayının yuxarı axarındakı XIII əsrə aid məbədlər, eləcə də Kaspetdəki Hatəm Məlik qalası, həmçinin digər məbəd və qədim körpülər dağıdılaraq erməni «yarlığı» ilə dünyaya təqdim edilsə də, heç birinin onlara aidiyyəti yoxdur. Ümumiyyətlə, təcavüzə məruz qalan bu abidələrin sonrakı taleyi məlum olmasa da, onların əksəriyyətinin ya məhv edilməsi, yaxud «erməniləşdiilməsi» şəksizdir,

Ağdərənin adı dəfələrlə dəyişdirilib. 8 avqust 1930-cu ildə yaradılan rayon 10 sentyabr 1939-cu ilədək Çerabert, 1991-ci ilə qədər Mardakert, ləğv olunana kimi isə ilk adı özünə qaytarılaraq Ağdərə adlandırılıb. Dağlıq Qarabağda seperatizm açıq hücüma keçəndə 1992-ci ilin oktyabrında Azərbaycan hökumətinin qərarı ilə Ağdərə rayonu, ləğv edilərək ərazisi Tərtər, Ağdam və Kəlbəcər rayonlarına qatıldı. Şuşa istisna olmaqla işğala qədər bu rayon ən çox azərbaycanlı yaşayan rayonlardan biri idi.

Qeyd edək ki, Ağdərə, Dağlıq Qarabağdakı bir çox ərazilər kimi, Qarabağ müharibəsinin başlanğıcında erməni silahlı qüvvələrinin nəzarəti altına keçdi. 1992-ci ildə Azərbaycan ordusu rayonun çox hissəsini işğalçılardan azad etdi. Bir il Ağdərə şəhəri ətrafındakı kəndlərdə və yüksəkliklərdə aramsız döyüşlər getdi. Təəssüf ki, 1993-cü ildə iyun ayının 4-də Gəncə qiyamı baş verəndə Qarabağ cəbhəsində döyüşən ordu ön xətdən çıxarıldı. Bu fürsətdən istifadə edən erməni silahlı birləşmələri 1993-cü il iyulun 7-də Ağdərəni kəndləri ilə birlikdə yenidən işğal etdi. Dəlidağdan başlanğıc götürən, aran Qarabağın Şoran torpaqlarını cana gətirən Tərtər cayının qarşısını Ağdərə ərazisində kəsməklə ermənilər kəlbəcərliləri işığa, yola həsrət qoydular.

Qeyd etmək yerinə düşər ki, ermənilər Dağlıq Qarabağın «Sirlər-sehirlər dərəsi»ni ən strateji əhəmiyyət kəsb edən məntəqə kimi qoruyurdular. Lakin bu il aprel ayının əvvəllərində bu strateji nöqtə düşməndən çox-çox güclü olan cəsarətli, qətiyyətli oğullardan ibarət Azərbaycan ordusunun göstərdiyi şücaətlə tarixə düşdü. Ordumuzun vətən sevgisi, nəinki erməni əsgərlərini, hətta ordu generalını səngərdən qorxaqcasına qoyub qaçmağa məcbur etdi. Həmin günlərdə Cəbrayılın Lələtəpə yüksəkliyini azad edərkən Goranboyun Talış, Ağdərənin Madgiz kəndlərinin daimi nəzarət altında qalan döyüş nöqtələri də susduruldu. Bu qələbə artıq Qarabağın erməni silahlı birləşmələrindən azad olunması yolunun başlanğıcını qoymuşdur.

**N. ATAKİŞİYEV.**

# TƏQVİMDƏN SƏTİRLƏR

**11 iyul:** 1918-ci ildə şair və həkim **Abbas Səhhət (Abbas Əliabbas oğlu Mehdizadə)** vəfat edib. Tehran Universitetinin tibb fakultəsini bitirib. Şamaxıda həkimlik edib. M. Mahmudbəyovla birlikdə "Yeni məktəb" (1909), "Türk ədəbiyyatına ilk qədəm" adlı dərsliklər yazıb. M. Ə. Sabirin yaxın dostu olub və onun əsərlərini ölümündən sonra ilk dəfə 1912-ci ildə nəşr etdirib. A. Səhhətin ilk şeiri 1904-cü ildə "Şərqi-rus" qəzetində çap olunub. Bir sıra şeirlər, təmsillər, pyeslər yazıb.

**1514-cü ildə** Osmanlı imperiyası ilə Səfəvi dövləti arasında Çaldıran döyüşü olub.

**12 iyul:** Azərbaycan dramaturgiyasının məhşur siması, filosof **Mirzə Fətəli Axundov** (1812—1878) anadan olub. Yaradıcılığa şeirlə başlayıb. 6 komediyası ilə Azərbaycanda realist dramaturgiyanın, "Aldanmış kəvakib" əsəri ilə Azərbaycan realist nəsrin əsasını qoyub.

UNESCO-nun baş direktoru xanım **İrina Bokova** 1952-ci ildə Serbiyada dünyaya gəlmişdir. Moskva Beynəlxalq Əlaqələr İnstitutunu bitirmişdir. Sonra BMT-də diplomatik fəaliyyətdə olub. Bolqarıstanda Baş nazirin müavini və xarici işlər naziri işləyib. 2005-ci ildən Bolqarıstanın BMT-dəki daimi nümayəndəsinin müavini idi.

Çili şairi, Beynəlxalq Sülh Mükafatı laureatı **Pavlo Neruda** (1904—1973) anadan olub. Fransada səfir, UNESCO-da Çilinin nümayəndəsi olmuşdur.

**13 iyul:** kinorejissor **Rasim İsmayılov** 1936-cı ildə dünyaya gəlib. Bir sıra televiziya və multifilikasiya filmlərinin, «Yenilməz batalyon», «Sevil», «Torpaq, dəniz, od, səma», «Nəsimi», «Dədə Qorqud» və s. bədii filmlərin quruluşçu operatoru olub.

**2006-cı ildə** Bakı—Tblisi—Ceyhan əsas ixrac boru kəməri işə salınmışdır. Bu münasibətlə Türkiyənin Ceyhan şəhərində təntənəli mərasim keçirilmişdir.

**14 iyul:** Rus şairi **Qavrila Derjavin** (1743—1816) anadan olub. İki vilayətdə Qubernator, II Yekatrinanın xüsusi katibi, senator, ədliyyə naziri işləmişdir. Onun «Ana duası» şeirini Abbas Səhhət tərcümə etmişdir.

**Fransanın müstəqillik günüdür.**

**15 iyul:** Şair **Hüseyn Arif (Hüseyn Hüseyzadə**, 1924—1983) anadan olmuşdur.

Xalq rəssamı, heykəltəraş **Cəlal Qaryağdı** (1915—2001) anadan olmuşdur. Heykəltəraşlığın müxtəlif janrlarında əsərlər (monumental heykəl, portret, büst, barelyef) yaratmışdır. Böyük Vətən müharibəsi illərində cəbhə qəzetlərində siyasi karikaturalarla çıxış etmişdir. Nəriman Nərimanovun, M. P. Vaqifin və M. Ə. Sabirin heykəllərini, X. B. Natəvanın, Q. Qarayevin, Y. Məmmədəliyevin və F. Əmirovun büstlərini yaratmışdır.

Dünya incəsənətinin ən görkəmli nümayəndələrindən biri, holland boyakarı **Harmens Rembrand** (1606—1669) anadan olmuşdur. 800-ə qədər tablo, 2000 rəsm əsəri, 300 ofort qoyub getmişdir. Ömrünün son illəri ağır şəraitdə keçmişdir. Amsterdamda vəfat etmiş, yurdsuzlar qəbristanında dəfn olunmuşdur.

**16 iyul:** Görkəmli estrada müğənnisi, xalq artisti **Mirzə Babayev** (1913—2002) anadan olmuşdur. Bir sıra filmlərdə çəkilmişdir.

**17 iyul:** Böyük Vətən müharibəsində faşizm üzərində qələbənin mühüm mərhələsi başlanmışdır. Həmin müharibə dövründə ən iri miqyaslı vuruşmalardan biri Stalinqrad vuruşması (1942—1943) olmuşdur. Vuruşmanın birinci mərhələsi müdafiə, ikinci mərhələsi hücum xarakteri almışdı. Əvvəlcə düşmən qüvvələri sovet ordu hissələrindən həm canlı qüvvə, həm də döyüş texnikasına görə çox üstünlüyə malik idi. Buna baxmayaraq qanlı döyüşlər sovet qoşunlarının qələbəsi ilə nəticələndi. Düşmən ordusu ölənlər, yaralananlar, əsir və itkin düşənlərlə birlikdə təqribən 1,5 milyon əsgər və zabit itirdi. 1500 nəfər azərbaycanlı "Stalinqradın müdafiəsinə görə" medalı ilə təltif olunmuşdur.

Azərbaycan Səfəvi dövlətinin banisi, sərkərdə, şair **Şah İsmayıl Xətai** (1487—1524) anadan olmuşdur. 1501-ci ildə, 14 yaşında özünü şah elan etmişdir. Ayrı-ayrı xanlıqlara bölünmüş Azərbaycanı vahid dövlət kimi birləşdirmək uğrunda mübarizə aparmışdır. Şeirlərinin çoxunu ana dilində yazmışdır.